# Tələbə-gənclər dövlət başçımızın siyasi kursunu ürəkdən dəstəkləyirlər

***Möhtərəm Prezidentimizin Gənclər Günü ilə bağlı Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş forumda gənclərlə görüşünü televiziya vasitəsilə maraqla izlədim. Açığını deyim ki, bu görüşdən böyük qürur hissi duydum. Cənab Prezidentin ulu öndər Heydər Əliyevin gənclər siyasətini uğurla davam etdirdiyinin bir daha şahidi oldum. Görüşdə müxtəlif sahələrdə çalışan gənclərimizin nümayəndələri iştirak edirdilər. Onlar arasında gənc sahibkarlar, dövlət proqramlarının iştirakçıları, keçmiş məcburi köçkün, şəhid ailələrinin gənc üzvləri, Vətən müharibəsi iştirakçıları, təhsildə və sosial fəaliyyətdə fərqlənən gənclərimiz var idi.***



Cənab Prezident gənclərin suallarını böyük təmkinlə cavablandırdı, onların qarşısında qoyulmuş vəzifələri bir daha diqqətə çatdırdı: " ...Biz gənclərimizi bundan sonra da mütləq vətənpərvərlik əsasında tərbiyə etməliyik. Vətənə bağlılıq, Vətənə sevgi, Vətən maraqlarını, dövlət maraqlarını hər şeydən üstün tutmaq hər bir gəncin borcudur".

Gənclər siyasəti sahəsində atılan addımlar və qəbul olunan qərarlar Prezident İlham Əliyevin gələcəyə hesablanmış uğurlu siyasətinin təcəssümüdür. Yaxşı başa düşürük ki, bu siyasətin gələcəkdə uğurla həyata keçirilməsi üçün bizim də üzərimizə çox məsuliyyətli vəzifələr düşür.

Müasir, müstəqil Azərbaycanın intensiv inkişafını təmin edən fundamental faktorlardan birini də cəmiyyətin ən dinamik təbəqəsi olan gənclərin potensialından səmərəli istifadə təşkil edir. Gənclər siyasəti ölkədə həyata keçirilən inkişaf siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Gənclərin fəaliyyəti üçün dövlətin yaratdığı geniş imkanlar nəticəsində biz cəmiyyətin aparıcı qüvvəsinə çevrilmişik. Müasir gənclik ölkəmizin gələcəyi uğrunda inamlı addımlar atmaqdadır. Biz bütün sahələrdə bunu müşahidə edirik.

Yaxşı bilirik ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıb. Prezident İlham Əliyevin həyata keçirdiyi gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına şərait yaradıb.

Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafı dövlətin zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri etdiyindən gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında onların fəal iştirakını təmin etmək məqsədilə dövlət başçısı 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb.

Yaxşı bilirik ki, dövlət başçımız gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə xüsusi qayğı göstərir. Bu, həm də gənclərin üzərinə böyük məsuliyyət qoyur. Cənab İlham Əliyevin vurğuladığı kimi, "Hər bir gənc bilməlidir ki, bizim hamımızın əsas vəzifəsi dövlət müstəqilliyini möhkəmləndirməkdir, onu qorumaqdır". Bu çağırışın mahiyyətini yaxşı başa düşürük və biz tələbələrin də əsas hədəfi gələcəkdə müstəqilliyimizin daha da möhkəmlənməsinə öz töhfəmizi verməkdən ibarət olmalıdır.

***İbrahim MİRMEHDİZADƏ,***
***BDU-nun hüquq fakültəsinin tələbəsi***

Xalq qəzeti.- 2022.- 4 fevral.- S.3.